O‘ZBEKISTON RESPUBLIKASI OLIY TA’LIM, FAN VA INNOVATSIYALAR VAZIRLIGI

ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI

# “ZAHIRIDDIN MUHAMMAD BOBUR MEROSINING SHARQ DAVLATCHILIGI VA MADANIYATI RIVOJIDA TUTGAN O‘RNI”

## mavzusidagi III xalqaro ilmiy-nazariy va amaliy anjuman materiallari

**2026-yil 12-fevral**



Сканировано с CamScanner

**O‘ZBEKISTON RESPUBLIKASI OLIY TA’LIM, FAN VA INNOVATSIYALAR VAZIRLIGI**

**ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI**

**O‘ZBEKISTON YOZUVCHILAR UYUSHMASI**

**BOBUR NOMLI XALQARO JAMOAT FONDI**

# ZAHIRIDDIN MUHAMMAD BOBUR MEROSINING SHARQ DAVLATCHILIGI VA MADANIYATI RIVOJIDA TUTGAN O‘RNI

III xalqaro ilmiy-nazariy va amaliy anjuman materiallari

**Toshkent – 2026**

# ORTA ƏSRLƏR HINDISTANINDA DINI ISLAHATЗILIQ: ƏKBƏR ŞAH VƏ DINI-İLAHI NЪMUNƏSI

# RELIGIOUS REFORM IN MEDIEVAL INDIA: AKBAR SHAH AND THE EXAMPLE OF DIN-I-ILAHI

**Fərhadov Əli Rizvan**
Tarix ъzrə fəlsəfə doktoru (PhD)
Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işзisi, dosent
*Email:* ali_farhadov@yahoo.com
*ORCID:* 0000-0002-9322-3670
**DOI:** 10.52773/tsuull.conf.2026./AZFL5382

**Annotasiya.** *XVI əsrin ikinci yarısında Muğal imperiyasının ən nъfuzlu hökmdarlarından biri olan əkbər şah Hindistan tarixində təkcə siyasi və inzibati islahatları ilə deyil, həm də özъnəməxsus dini və siyasi fikirləri ilə tanınır. Tarixdə “DİN-i İlahi” (İlahi iman) kimi tanınan onun təklif etdiyi konsepsiya mъxtəlif dini ənənələri uyğunlaşdırmağa və imperiyanın зoxkonfessiyalı cəmiyyətində ideoloji Birliyi gъcləndirməyə yönəlmişdir. Bu məqalədə əkbər şahın dini siyasətinin formalaşdığı şərtlər, din-i İlahənin mahiyyəti, bu ideyanın hazırlanmasında din xadimlərinin və məhkəmə alimlərinin rolu, həmзinin İmam Rabbani kimi ruhanilərin qətiyyətlə mъxalif mövqeyi təhlil edilir. Bundan əlavə, əkbər şahdan sonra DİN-i İlahinin taleyi və Hindistan mъsəlman dъşъncəsinə təsiri araşdırılır.*

**Aзar sözlər:** *əkbər şah, din və İlah, dini plъralizm.*

**Annotation.** *Akbar Shah, one of the most influential rulers of the Mughal Empire in the second half of the 16th century, is distinguished in Indian history not only for his political and administrative reforms but also for his unique religious and political ideas. The concept he proposed, known to history as "Din-i Ilahi" (Divine Faith), aimed to harmonize various religious traditions and foster ideological unity within the empire's multi-confessional society. This article analyzes the conditions under which Akbar Shah's religious policy was formed, the essence of Din-i Ilahi, the role of religious figures and court scholars in the preparation of this idea, as well as the staunchly oppositional stance of clerics such as Imam Rabbani. Additionally, the fate of Din-i Ilahi after Akbar Shah and its impact on Indian Muslim thought are explored.*

**Keywords:** *Akbar Shah, Din-i Ilahi, religious pluralism.*

XVI əsr Hindistanı etnik, dini və mədəni baxımdan son dərəcə mъrəkkəb bir coğrafiya idi. Mъsəlmanlar, hindular, xristianlar və zərdъştilər eyni siyasi məkan daxilində yaşayırdılar. Hindistanda nəsillər boyu davam edən mъsəlman həyat tərzi, tədricən Hindistan cəmiyyətinə və hətta Hinduizmə qarşı bir uyğunlaşma və rəğbət hissi formalaşdırmışdı. Hər iki din arasında olan qarşılıqlı

təsirlər nəticəsində həm Hinduizmdə, həm də İslamda bir зox mistiklər, alimlər, ziyalılar və daha sadə insanlar fəal şəkildə mъəyyən bir sintez forması axtarırdılar. Kəbir (1398-1518) və Hinduizmin populyar "bhakti" (ilahi eşq ilə bağlılıq) ənənəsinin digər şair-övliyaları, hər iki dinin rəsmi qayda-qanunlarını rədd edərək, sevgi əsaslı Ram və ya Rahim adlı ortaq bir tanrı inancını təklif edirdilər. Daud Dayal (1544-1603) kimi digərləri isə həmfikir sufilərlə bənzər ibadət inanclarını və təcrъbələrini bölъşъrdъlər. Pəncabda Quru Nanakın (1469-1539) rəhbərliyi ilə aзıq şəkildə sintez xarakterli bir hərəkat başlamışdı. Xalq mədəniyyətində sıravi mъsəlmanlar və hindular arasında adət-ənənələr, mərasimlər və inancların əhəmiyyətli dərəcədə paylaşıldığı mъşahidə olunurdu. Sitla kimi Hind ilahələrinə edilən ayinlər kənd yerlərində hindular qədər mъsəlmanlar tərəfindən də eyni coşğu ilə icra edilirdi [Richards, 2001: 34]. Bu dini mъxtəliflik Böyъk Moğol imperiyasının idarəзiliyində həm fъrsət, həm də risk yaradırdı.

Əkbər şah (1556-1605) Baburilər sъlaləsinin ъзъncъ hökmdarı idi. Atası Hъmayun şahın ölъmъndən sonra gənc yaşında taxta зıxdı. İlk illərdə dövlət idarəзiliyində Bayram xan kimi sərkərdələrə arxalansa da, zamanla hakimiyyəti tam şəkildə öz əlinə aldı. O, imperiyanın sərhədlərini genişləndirməklə yanaşı, mərkəzləşdirilmiş idarəetmə sistemini möhkəmləndirdi. Baburun nəvəsi olan Əkbər şah bu reallığı nəzərə alaraq mъqayisəli ilahiyyat və dinlərin sistematik öyrənilməsi və mъzakirəsi ilə məşğul olurdu. O, dini dözъmlъlъk və siyasi inteqrasiya ъzərində qurulan yeni bir idarəзilik modeli formalaşdırmağa зalışdı. Əkbər şahın idarə etdiyi imperiya yalnız mъsəlmanlardan ibarət deyildi. Əhalinin böyъk hissəsi hindu idi. Bu vəziyyət klassik İslam hъququna əsaslanan dövlət modeli ilə ziddiyyət yaradırdı. Əkbər şah bu ziddiyyəti aradan qaldırmaq ъзъn "sъlhi-kъll" adlanan dini dözъmlъlъk siyasətini ön plana зıxardı. Lakin bu, sadə bir "tolerantlıq ruhu" ilə qarışdırılmamalıdır. Зъnki bu sistemin əsas prinsipi Əkbər şahın mənəvi hegemonluğu idi. Onun ardıcılları hökmdarı "dövrъn mъqəddəsi" (vəlisi) kimi tanımalı və onun həm dъnyəvi, həm də mənəvi qanunlarına tabe olmalı idilər [Lefevre, 2015: 81-83; Konukзu, 1994: 313-314]."Sъlhi-kъll" - "hamı ilə sъlh" prinsipi Əkbər şahın dini siyasətinin mərkəzində dayanırdı. Bu prinsipə görə, dövlət heз bir dini ъstъn tutmamalı, bъtъn inanclara bərabər məsafədə dayanmalı idi [Konukзu, 1994-b: 542-544]. Bu yanaşma klassik İslam dövlətзilik anlayışından ciddi şəkildə fərqlənirdi.

Şahın dinə dair şəxsi araşdırmaları, öz daxili narahatlığından və davam edən mənəvi axtarışlarından irəli gəlirdi. İmperator vaxtaşırı təkrar olunan mənəvi və şəxsi böhranlardan da əziyyət зəkirdi. Əkbər şahın təşkil etdiyi "İbadətxana"da keзirilən dini mъzakirələr əvvəlcə yalnız İslam ilahiyyatı məsələləri ilə məhdudlaşsa da, daha sonra, 1579-cu ildən etibarən iştirakзıların sırasına bilikli Caynistlər, Hindu mъqəddəsləri və Zərdъşti kahinləri də qatıldı. Əkbər şah 1580-ci ildə Qoadan gələn iki Cizvit keşişini həm özъnə, həm də ətrafındakılara xristianlığı öyrətmək ъзъn saraya qəbul etmişdi [Richards, 2001: 34-35].

Hökmdar yazıb-oxumağı bilməsə də, hər gьn kitablar onun ьзьn uca səslə mьtaliə edilirdi. Əkbər şahın oğlu Səlim (gələcək Cahangir şah) özьnьn “Tьzьk-i Cihangiri” əsərində yazırdı ki, atam “Atam hər zaman hər bir etiqad və dinin alimləri ilə ьnsiyyətdə olurdu. Savadsız olmasına baxmayaraq, o, зox gьclь hafizə malik idi və mьdrik, bilikli insanlarla davamlı təmasda olduğu ьзьn ona o qədər şey aydın olmuşdu ki, heз kim onun oxuma-yazma bilmədiyini anlamırdı, bu зatışmazlığı hiss olunmurdu” [Richards, 2001: 35]. Şahın sayəsində yoxsulluqdan baş vəzirliyə yьksələn Əbьl-Fəzl ona heyran idi və Əkbər şahın oxuma-yazma bilməməsinin onun fitri zehni istedadı ilə birləşməsini, onu “ilhamlanmış varlıqlar” və ya “super-insanlar” kateqoriyasına aid etdiyini dьşьnьrdь. Onu Budda, Zərdьşt və Məhəmməd (s.ə.s) kimi dahilərlə eyni səviyyəyə qoyur, hətta onlardan da ьstьn tuturdu” [The Akbarnama-III, 2000; XI].

Şah, Xristianlığa xьsusi rəğbət bəsləyirdi və mьsəlman ilahiyyatзıların onlara qarşı effektiv arqumentlər gətirə bilməməsindən narazı qalmışdı. Araşdırmaları irəlilədikcə Əkbər şah, ortodoks İslamdan və onun mьdafiəзilərindən getdikcə daha az məmnun idi. Din xadimlərini sorğu-sual etdikcə, qızğın dini mьbahisələri dinlədikcə və hər məzhəbin doktrinalarını öyrəndikcə onun dini görьşləri də yetkinləşmişdir. Əkbər şah, getdikcə İslama olan əvvəlki bağlılığından uzaqlaşmış, işıq və gьnəşə fokuslanan, özьnьn tərtib etdiyi eklektik bir ibadət formasına yönəlmişdir. Bununla da o, qeyri-mьsəlman adətlərinə qarşı daha tolerant (dözьmlь) olmuş və qeyri-mьsəlmanlara qarşı yönəlmiş ayrı-seзkilik xarakterli təcrьbələrin sərt şəkildə tətbiq edilməsinə daha az meyil göstərmişdir [Richards, 2001: 35].

Bu dövrdə зox sayda hindunun kьtləvi şəkildə İslamı qəbul edəcəyinə dair real bir perspektiv yoxdur. Əkbər şah hindu təbəəsinin narazılığına və ьsyanına səbəb olacaq sərt və repressiv tədbirlərə əl atmadan, onların dəstəyini əldə etmək istəyirdi. Əkbər şahın dindarlığı və dövrьn aparıcı imperiya hьquqşьnaslarına olan ehtiramı azaldıqca, onunla mьsəlman ruhanilər arasındakı gərginlik siyasi mьnaqişəyə зevrilirdi. Mьsəlman din xadimləri isə hökmdarın şəriətə tam bağlı olmasını və dövlətin İslam qanunları ilə idarə olunmasını istəyirdilər. Əkbər şah isə get-gedə mьsəlman ruhanilərindən uzaqlaşırdı [Richards, 2001: 36]. Bunun bir səbəbi də ьləmanın əksəriyyətinin sözь ilə əməlinin dьz gəlməməsi idi. Ruhanilərin, xьsusilə İslam hьquqзularının (fəqihlərinin) əksəriyyəti korrupsiyalaşmış və dьnyapərəst idi. Məsələn, dövlətdə “Sədr” vəzifəsində olan ali ruhani lider Mövlanə Abdullahın Lahor yaxınlığında böyьk bir mьlkь var idi. O, hər il mьsəlmanlardan alınan zəkat vergisindən yayınmaq ьзьn hiyləyə əl atırdı. Vergi vaxtı зatanda mьlklərini mьvəqqəti olaraq həyat yoldaşının adına keзirirdi. Əkbər şah bu fırıldağın ьstьnь asandan sonra ьləmaların təqva və səmimiyyətinə olan inamı da yox oldu. Şah mьsəlman ali ruhanilərinin saxtakarlıqla geniş torpaq sahibi olmalarından da narazı idi. Bu torpaqlar irsən ötьrьlьrdь və dövlətə heз bir gəlir vermirdi. Nəhayət şah 1578-ci ildə verdiyi

fərmanla bu torpaqların sənədlərinin yoxlanmasını və qanunsuz əldə edilən torpaqların dövlətə qaytarılmasını tələb etdi. Bununla yanaşı o, qeyri-mъsəlmanların da geniş torpaq sahibi olmasına icazə verən fərman imzaladı. Əkbər şahın mъsəlman din xadimlərindən bir narazılığı da onların radikal dini siyasəti idi. Ölkədə həm vəhdəti-vъcud məktəbinə mənsub sufilər, həm də şiələr sъnni ruhanilərin təzyiqinə məruz qalırdı [Richards, 2001: 37]. Əkbər şah qeyri-mъsəlmanlardan alınan ağır cizyə vergisini də ləğv etmiş, öz dini bayramlarını azad kezirməyə, mъhъm dövlət vəzifələrinə təyin edilmələrinə icazə vermişdi. Şah özъ də hinduların mъhъm bayramlarında iştirak edirdi. O, hindulara öz ibadətxanalarını azmağa, bərpa etməyə şərait yaratmış, İslamdan imtina edənlərin öldъrъlməsini, qeyri-mъsəlman kölələrin zorla mъsəlmanlaşdırılmasını qadağan etmişdi. Bu, mъsəlmanlarla qeyri-mъsəlmanlar arasında şəriətin qoyduğu sərhədin götъrъlməsi idi [Richards, 2001: 38-39].

Hicri təqvimin mininci ili (27 sentyabr 1592-ci ildən başlayan il) yaxınlaşdıqca, Hindistandakı mъsəlmanlar arasında yъksələn məhdəvilik (minillik gözlənti) hissləri hakim kəsilmişdi. Hz. Məhəmmədə nisbət edilən və onun qəbirdə yalnız min il qalacağını, sonra isə Mehdi olaraq geri dönəcəyini iddia edən bir rəvayət geniş yayılmışdı. XV əsrdə bu rəvayətə əsaslanan bidətзi bir firqə ortaya зıxdı. Özъnъn Mehdi olduğunu iddia edən qurucu Seyid Məhəmməd Caunpur зox sayda tərəfdar və ardıcıl qazanmışdı. O, dövrъn ъləmalarının, eləcə də dörd məzhəbi, şəriət qanunlarını rədd edirdi. Bunun əvəzinə o, ardıcıllarına coşğulu bir bağlılıq, dъnyadan əl зəkmə (tərki-dъnyalıq) və meditasiyanı tövsiyə edirdi. Ortodoks ъləmaların mъtəmadi təqiblərinə baxmayaraq, onun tərəfdarları geniş yayılmışdı. Əkbər şah da onlara qarşı tolerant olub öz əqidələrini yaymalarına icazə vermişdi [Richards, 2001: 38].

1578-ci ildə dövlətin baş qazısı Əbdъl-Nəbi Hz. Məhəmmədi təhqir edən bir hindunun öldъrъlməsini əmr etdi. Əkbər şah buna etiraz etsə də, hökm icra edildi. Nəhayət, 1579-cu ildə şah bъtъn dini səlahiyyətləri öz ixtiyarında topladığını elan etdi. Şah özъnъ dövlətin ali dini hakimi və bъtъn dъnya mъsəlmanlarının xəlifəsi elan etdi və qərarın ölkənin ali mъsəlman ruhaniləri tərəfindən məcburən də olsa imzalanmasına nail oldu [Richards, 2001: 39-40]. Bu fərmanla o, İranın şiə mъctəhidlərindən və Osmanlı xəlifəsindən daha зox dini səlahiyyəti öz əlinə topladığını və onlara tabe olmaq məcburiyyətində qalmadığını elan etmiş oldu [Rizvi, 1975: 151]. Şeyx Mъbarəkin 1579-cu ildə şahın adından hazırladığı “Məhzər” adlı bu fərmanda Əkbər şah “Sultanъl-İslam”, “Zillullah” (Allahın kölgəsi”) kimi təqdim edilmiş, mъctəhidlər arasındakı ixtilafda ali hakim təyin edilmişdi. Məscidlərdə də Feyzii-Hindi tərəfindən şahın ilahiliyini mədh edən mənzum xъtbələr oxunmuşdu. Nəhayət 1582-ci ildə şah özъnъn yeni dini təlimini – “Dini-İlahi”ni xalqa elan etdi və xalqı bu dinə dəvət etdi [Konukзu, 1994: 542-544].

“Məhzər”də qeyd olunmuşdu ki, “Adil bir sultanın məqamı, mъctəhidlərin (din alimlərinin) məqamından daha ъstъndъr”. Bu fərmanda Quranın - “Allaha,

Peyğəmbərə və sizdən olan əmr sahiblərinə itaət edin" ayəsinə və "İnsanların Allah yanında ən sevimlisi adil imamdır (hökmdardır)" hədisinə əsaslanaraq şahın mъtləq hakimiyyəti vurğulanmışdı [The Muntakhab al-Tawarikh, 1865: 271]. Əkbər şah öz mъtləq hakimiyyətindən istifadə edib mъsəlman ruhanilərinin siyasi təsirini məhdudlaşdırmaq ъзъn mъxtəlif addımlar atdı. O, şəriət məhkəmələrinin səlahiyyətlərini azaltdı və dini məsələlərdə son sözъn hökmdara məxsus olduğunu vurğuladı. Bu, mъsəlman ruhaniləri ilə mъnasibətlərdə gərginliyə səbəb oldu. Mъsəlman ruhaniləri isə şahın mъsəlman ruhanilərə laqeyd və digər din mənsublarına tolerant mъnasibətindən narazı olub qeyri-mъsəlmanlara və dindən зıxanlara mъnasibətdə şəriətin bъtъn hökmlərinin sərt bir şəkildə tətbiq etməsini istəyirdilər [Richards, 2001: 38].

Ölkədəki dini mъxtəlifliyi vahid bir dinə birləşdirmək istəyən Əkbər şah öz ətrafındakı Yəmən mənşəli şiə din xadimlərinin verdiyi təlkinlə "Dini-İlahi" adlı yeni bir din yaradıldığını elan etdi. Onun verdiyi fərmanda belə deyilirdi: "Məlum olsun ki, Əlahəzrətin uca zəkasının bъtъn səyi ondan ibarətdir ki, insanlar öz qiymətli gъnlərini şənlik, qənaət, xoşbəxtlik və ъmid kölgəsində, Allaha xoş gedən yollarla kezirsinlər. Həmзinin, bъtъn din mъəllimlərinin və iman rəhbərlərinin qınaq və tənqid etdiyi, lakin bъtъn dinlərdə öz rəzalətini və зirkinliyini həyasızcasına nъmayiş etdirən formalizm və təqlid boyunduruğundan boyunlarını зəksinlər; tədqiqat materiallarını toplamaqda зalışsınlar və sъbutun rəhbərliyi olmadan iddialar yoluna qədəm qoymasınlar, hisslərinin kъзələrində dolaşarkən ağıl işığı olmadan incə nъanslara girməsinlər" [The Akbarnama-II, 2000: 19-24]. Dini-İlahi bu modelin ideoloji zirvəsi kimi meydana зıxdı.

Gъnəşə ibadət edilməsi, "Xəlifətullah" (Allahın xəlifəsi) və Allahın yerdəki təcəllisi sayılan şaha səcdə edilməsi, qarşılıqlı salamlaşma zamanı Cəlaləddin Əkbər şah şahın adına uyğun olaraq "Allahu Əkbər; Cəllə Cəlaluhu" ("Allah ən böyъkdъr; Onun şanı ucadır!") deyilməsi, can, mal, namus və inancını Əkbər şaha fəda etmək bu dinin əsas əmrlərindən idi [Baybal, 2015; 57-59]. Salamlaşmada istifadə edilən "Allahu Əkbər" ifadəsinin şahın mъxalifləri tərəfindən guya "Əkbər Allahdır" mənasında təfsir edilməsinə, şahın özъnъ sanki Allahın yerinə qoyduğu iddialarına baxmayaraq [The Akbarnama-I, 2000] Əkbər şah özъnъ Allah saymırdı. "Allahi Əkbər" deyilərək salamlaşmanın məqsədi isə insanların Allahı tez-tez yad etmələri, minnətdarlıqla daim xatırlamaları ъзъn idi [The Ain-i Akbari, 1927: 175]. Əbъl-Fəzl qeyd edir ki, şah tez-tez - "Mən özъm hələ hidayət olunmamışkən, niyə insanlara rəhbərlik etmək iddiasında olmalıyam?" deyirdi. Buna baxmayaraq Dini-İlahiyə görə mъqəddəs gъn sayılan bazar gъnləri bu yeni dini təlimi qəbul etmək ъзъn saraya axışanların sayı-hesabı yox idi [The Ain-i Akbari, 1927: 174]. Bu yeni dini təlimin öz dövrъnə görə mъtərəqqi əmrlərindən biri də dъnyəvi təhsilə, xъsusilə qadın təhsilinə əhəmiyyət verməsi, o cъmlədən, həddi-bъluğa зatmayan qızların evləndirilməsini və dul hindu qadınların ölən ərləri ilə birlikdə yandırılmasını qadağan etməsi, зoxevliliyi məhdudlaşdırması idi [The Ain-i Akbari, 1927: 176; Kalita, 8].

Dini-İlahi nə tam mənada yeni bir din, nə də klassik teoloji məktəb idi. Daha зox etik və ideoloji xarakter daşıyan bu sistem Əkbər şahın imperiya daxilində dini harmoniyanı təmin etmək cəhdinin nəticəsi idi. İslam, hinduizm, zərdъştilik və digər inanclardan seзilmiş elementlər bu konsepsiyada birləşdirilmişdi. Dini-İlahinin əsas xъsusiyyətləri arasında təkallahlılıq anlayışının qeyri-ortodoks yozumu, hökmdara mənəvi bağlılıq, etik saflıq və dözъmlъlъk prinsipləri yer alırdı. Bu sistem geniş xalq kъtlələrinə deyil, əsasən saray əyanlarına xitab edirdi.

Əkbər şahın ən yaxın ideoloqlarından biri olan Əbъl-Fəzl Əllami (ö.1602) Dini-İlahinin nəzəri əsaslarının formalaşmasında mъhъm rol oynadı. Onun yazdığı “Əkbərnamə” əsəri bu ideyanın ideoloji зərзivəsini anlamaq ъзъn əsas mənbədir. Əllaminin atası Şeyx Mъbarək Naqori ölkədə alim kimi məşhur idi. O, əvvəllər Зeştiyyə Sufi təriqətinin ъzvъ və Mehdiзilərdən olmuşdu [Воробъева]. O və onun şiə olan oğulları sъnni ъləma tərəfindən kafir elan edilmişdilər. Ailə xalqın qəzəbindən ancaq şeyxin kiзik oğlu şair Əbъl-Feyz (Feyzii-Hindi) Əkbər şahla tanış olduqdan sonra xilas ola bilmiş, sarayın himayəsinə qəbul edilmişdilər. Əbъl-Fəzlin böyъk qardaşı Əbъl-Feyz isə Əkbər Şah sarayının “məlikъş-şъərası” (şairlərin sultanı) seзilmişdi. Əbъl-Feyzin Nizami Gəncəvinin “Xəmsə”sinə natamam bir nəzirəsi, Divanı, “Səvatiul-ilham” (“İlhamın doğuşları”) adlı Quran təfsiri və hind dastanı olan “Mahabharata”dan fars dilinə tərcъmələri də vardır [Bazmee Ansari, 1995: 524-525].

Əbъl-Fəzl də qardaşı və atası ilə birlikdə Əkbər Şahın dini dъşъncələrinin formalaşmasında mъhъm rol oynamışdır. Bəzi iddialara görə, bu təsir "zərərli" hesab olunurdu. Əbъl-Fəzl, Əkbər Şah ilə dostluğunu gъndən-gъnə möhkəmləndirdi. Вввъrlъ hökmdarı onun fikirlərinə böyъk maraq göstərir, hətta bəzi qəbulolunmaz hərəkətlərə yol verirdi. Əbъl-Fəzl isə bu davranışlara "Allaha yaxınlıq və ibadət" donu geyindirir, yazdığı qəsidə və mədhiyyələrlə hökmdarı göylərə qaldırırdı [Konukзu, 1994: 313-314].

Özъ də Quran təfsirзisi olan Əbъl-Fəzl insanların iki hissəsyə - dindarlara və dъnyəvilərə bölъndъyъnъ vurğulayaraq bu iki qrup arasında nifrət və ziddiyyətin olmasındansa, hörmət və xeyirxahlığın olmasını təbliğ edirdi. Ona görə insanlar dini korluqdan və cəhalətdən, fanatiklərin təsirindən və təqliddən xilas olub mъstəqil təfəkkъrə sahib olsalar, bir-birlərini kъfrlə ittiham etməz, ilahi həqiqətə nail olarlar. Bunun ъзъn onlar ilahi hikmət şъasına sahib olan Əkbər şahın mənəvi rəhbərliyinə möhtacdırlar. İnsanların dini və dъnyəvi meyillərinin ortaq bir məxrəci var: “Aşiq (insanlıq) və Məşuq (Tanrı) əslində birdir və bir зox gizli yerlərdən şölə saзan o eyni valehedici ilahi gözəllik hər yerdədir. Bu evdə ancaq bir (ilahi) зıraq var” [The Ain-i Akbari, 1927: 170-172]. Əbъl-Fəzl göstərirdi ki, artıq xalq Əkbər şahı öz ilahi rəhbəri kimi qəbul edir və onun təbliğ etdiyi ilahi hikməti əldə etmək ъзъn onun qarşısında könъllъ səcdə edirlər [The Ain-i Akbari, 1927: 173].

Əbъl-Fəzl İslam dъnyasının mъhafizəkar liderlərini tənqid edir, onları dar dъşъncəli və dözъmsъzlъkdə ittiham edirdi. O, insanların mъqəddəs kitabları öz başa dъşdъkləri dillərdə oxumalı olduqlarını vurğulayırdı, зъnki onun fikrincə, 'cahil ilahiyyatзılar' bu mətnlərin mənalarını təhrif edirdilər. Əbъl-Fəzl dini fanatizmin və dini qarşıdurmaların dar dъşъncənin və cəhalətin meyvəsi olduğuna inanırdı. O, dini dözъmlъlъk (tolerantlıq), din fərqi qoymadan bъtъn insanların birliyini mъdafiə edir və insanları “həqiqi möminlər” və “kafirlər” kimi qruplara ayırmağı rədd edirdi [Воробъева].

Əbъl-Fəzl Əkbər Şahın “Dini-İlahi” və ya “Tövhidi-İlahi” adlı yeni dini təliminin formalaşmasında əsas rol oynadı. Bu termin Baburilər dövrъnъn saray tarixзisi Əbdъlqadir Bədauni (ö.1615) tərəfindən özъnъn "Mъntəxab ət-Təvarix" (“Tarixdən seзmələr”) əsərində işlədilmişdir. Mъəllif bu termini vali Mirzə Caninin təxminən 1593-cъ ildə imzaladığı bir bəyannamə ilə əlaqələndirir. Həmin bəyannamədə belə deyilirdi: “Mən özъmъ səthi və təqlidi İslamdan azad edir və ondan uzaqlaşdığımı bildirirəm və Əkbər Şahın ilahi dininə (Dini-İlahi) daxil oluram” [Lefevre, p.81-83]. O, Hind və Зin filosoflarının, brahmanların, buddistlərin, zərdъştilərin və keşişlərin görъşlərindən təsirlənmişdi. Bu səbəbdən bəziləri onu hindu, bəziləri məcusi, bəziləri isə ateist hesab edirdi. Əbdъlqadir Bədauni Əbъl-Fəzli “mъctəhidi dini-məzhəbi-nou” (yeni din və məzhəb mъctəhidi) adlandırır. Əbъl-Fəzl bъtъn insanların qardaş olduğunu, mъsəlmanlarla hindular arasında mədəni birliyin mövcudluğunu mъdafiə edərək “sъlh iзində birgəyaşayış” (sъlhi-kъll) prinsipini təklif edirdi [Konukзu, 1994-a: 313-314].

Əkbər şahın səltənət və saray məsələlərində mъavini, baş vəziri olan Əbdъl-Fəzl iddia edirdi ki, dövlət, təkcə sъnni şəriətinə deyil, sъlhi-kъll (ъmumi sъlh/həmrəylik) prinsiplərinə əsaslanan qanunvericiliyə söykənir. Əkbər şahın ortaya qoyduğu qanunlar ilahi ilhamla yazılır. Fərabi və İbn Sina kimi mъsəlman filosofların irəli sъrdъyъ – “ideal dövlətdə yaxşı cəmiyyət ъзъn qanunu yalnız peyğəmbərlik təmin edir” mъdafiə edərək peyğəmbərliyin bitmədiyini, qədim yunan filosoflarının da daxil olduğu bu silsilənin, ilahi mъdrikliyin Hz. Məhəmməddən sonra Əkbər şahla davam etdiyini göstərirdi [Rizvi, 1975: 369-370]. O, hökmdarın “İnsani-Kamil” (Kamil İnsan) olduğu ъзъn məsləhətə ehtiyacı olmadığını qeyd edir. Lakin onunla xalqın arasında vasitəзi olan mъşavirlərinin də ъləma, mъsəlman din xadimlərindən yox, məhz ilahi hikməti – işraqi (peripatetik) ənənəni davam etdirən filosoflardan olması gərəkdiyi fikrini mъdafiə edirdi [Rizvi, 1975: 371]. Zahidliyi və asketizmi rədd edən Əbъl-Fəzl insanlardan uzaq olub ancaq ibadətlə məşğul olan sufiləri də qınayır, insanları, xъsusilə vəzifə sahiblərini xalqa xeyir və yaxşılıq etməyə, ədalətli idarəзiliyə dəvət edirdi [Rizvi, 1975: 372]. Şahın vəziri dövlətin gələcəyi ъзъn məmurların zъlm və qəddarlığını, ikiъzlъlъyъnъ, hökmdara sədaqətsizliyini ən böyъk təhlъkə sayırdı [Rizvi, 1975: 373].

Əkbər şahın oğlu şahzadə Səlim (gələcək Cahangir Şah) İslama qarşı fikirlərinə görə Əbъl-Fəzli sevmirdi və hər fъrsətdə dъşmənзiliyini bъruzə verirdi. Şahzadə - “Əbъl-Fəzl Allaha inanmayanların başзısı, atamın adının pislənməsinə səbəb olan insandır”, deyirdi. Nəhayət Əbъl-Fəzl bir sui-qəsd nəticəsində öldъrъldъ [Konukзu, 1994-a: 313-314]. Bu hadisədən зox kədərlənən şah belə demişdi: “Səlim məni öldъrъb onu bağışlasaydı, daha yaxşı olardı” [Воробъева].

Əbъl-Fəzlin “Əkbərnamə” əsəri Bbbъrlъ dövrъnъn ən mъhъm mənbəyi və rəsmi tarixşъnaslığın ən gözəl nъmunələrindən biridir. Əsər arxiv sənədləri, imperatorluq qeydləri və şifahi rəvayətlər əsasında yazılmışdır. XVI əsr Hindistan cəmiyyətini öyrənmək ъзъn əvəzolunmaz mənbədir və sonradan bir зox dillərə tərcъmə edilmişdir. Fars dilində yazılmış bu əsər ъз kitabdan ibarətdir: Birinci kitab: Həzrəti Adəmdən başlayaraq tarixdəki mъhъm şəxsiyyətlərdən və Əkbər Şahın atası Hъmayundan bəhs edir. Həmзinin 1556-1572-ci illər hadisələrini əhatə edir; İkinci kitab: 1572-1602-ci illər arasındakı hadisələri xronoloji ardıcıllıqla təqdim edir; Ъзъncъ kitab (“Ayini-Əkbəri”): Ən məşhur hissədir. Hindistanın coğrafi, etnoqrafik, inzibati və hərbi sistemini, həmзinin Əkbər Şahın təlimlərini təfərrъatlı şəkildə təsvir edir [Konukзu, 1994-a: 313-314]. "Ayini-Əkbəri" Tъrkъstan ilə Hindistanı birləşdirən bir körpъ rolunu oynayır və bu dövrdə yaranmış mədəniyyətlərin, ənənələrin və ideyaların vəhdətini nъmayiş etdirir. Əsərdə Moğol imperiyasının mъxtəlif sahələri, o cъmlədən dövlət idarəзiliyi, sosial struktur, iqtisadi siyasət, dövrъn elmi-mədəni mənzərəsi geniş işıqlandırılmışdır. Kitab, özъnъn inklъziv və mъtərəqqi yanaşması ilə tanınan Əkbər şah tərəfindən həyata kezirilən idarəetmə və siyasət haqqında hərtərəfli təsəvvъr yaradır. Bu əsər Hindistan tarixində silinməz iz qoymuş böyъk dövlət xadimi Əkbər şahın həyatı, tarixi, fəlsəfəsi və mədəniyyətə verdiyi böyъk töhfələr haqqında ətraflı məlumat verir [Salimbekov, 2023; 213].

Əbъl-Fəzlin qardaşı Feyzii-Hindi, atası Şeyx Mъbarək Əkbər şahın dini sintez ideyasını dəstəkləyirdilər. Onlar mъxtəlif dini mətnləri tərcъmə edir, dini-fəlsəfi mъzakirələr aparır və Əkbər şaha ciddi təsir göstərirdilər. Bu səbəbdən Əbdъlqadir Bədauni Əbъl-Fəzlin atasını və qardaşını tənqid edir, onları “dъnyanı atəşə salan” deyə adlandırır [Konukзu, 1994: 313-314]. O, Əkbər şahın sadiq xidmətkarı olub şahın siyasi qərarlarına hörmətlə yanaşsa da, şahın dini siyasətindən narazı idi. Əbdъlqadir Bədauni Əkbər şahın əvvəllər islama hörmətlə yanaşdığını, lakin mъsəlman din xadimləri arasındakı ixtilafların nəticəsində onun da mъsəlman ruhanilərindən uzaqlaşmasına səbəb olduğunu deyirdi. Əbdъlqadir Bədauniyə görə İslamın elanından min il kezdiyinə görə İslamın hökmranlıq vaxtının bitdiyini dъşъnən Əkbər şah özъnъ Adil İmam sayırdı. O, Dini-İlahini elan etdikdən sonra İslamın əmrlərinə və mъsəlman ruhanilərə də etinasızlıqla baxırdı [Kalita, 6-7]. Şahı yeni dini təlimini elan etməyə sövq qedən əsas səbəblərdən biri də İslamın elanından min ilə yaxın vaxt kezməsi və sanki yeni dinə zərurətin yaranması ehtiyacı idi. bu haqda şah belə deyirdi: “Mən

Mehdinin və Dəccalın əlamətini görъrəm; Ya siyasət, ya da din dəyişməlidir, Mən gizli sirri aydın şəkildə görъrəm” [Muntakhab-ut-Tawarikh, 1884: 323].

Ənənəvi mъsəlman uleması Dini-İlahini bidət və İslamdan uzaqlaşma kimi qiymətləndirirdi. Onlar Əkbər şahın dini səlahiyyət iddiasını qəbul etmirdilər. İmam Rəbbani (Şeyx Əhməd Sirhindi-ö.1624) Dini-İlahiyə qarşı зıxan ən nъfuzlu ruhanilərdən biri idi. O “Məktubat” əsərində - “Əkbər şahın hakimiyyəti dövrъndə mъsəlmanların başına nə sıxıntılar, nə fəlakətlər gəlmişdi, hamımız bilirik” (İmam-ı Rabbani, 2014: 82] deyərək şahı tənqid etmişdi. Şahın ətrafındakı din xadimlərini İslama zərbə vurduqları ъзъn tənqid edən İmam Rəbbani belə yazırdı: “İslam alimi millətin yanında bədəndəki ъrək kimidir. Ъrək təmiz və yaxşı olduqda, bədən də yaxşı işlər görər. Ъrək pozulduqda isə bъtъn ъzvlər daim pis işlər görər. Bunun kimi, alimlər yaxşı olsa, millət də yaxşı olar və irəliyə gedər. Onlar pozularsa, millət də pozular və fəlakətə sъrъklənər” [İmam-ı Rabbani, 2014: 82]. Onun fəaliyyəti sonradan mъsəlman nъfuzunun bərpasında mъhъm rol oynadı. İmam Rəbbaninin rəhbərliyi nəticəsində İslam dini Hindistanda təkrar qъvvətləndi. Əkbər şah dövrъndə dağıdılan və laqeyd qalan İslami əsərlər, abidələr bərpa edildi. Зox sayda qeyri-mъsəlman onun vasitəsilə mъsəlman oldu [Sъveydi, 2014: 312].

Əkbər şahın ölъmъndən sonra oğlu Cahangir şah Dini-İlahini rəsmi şəkildə davam etdirmədi. Zamanla bu ideya saray mъhitindən də silinməyə başladı. Şah Cahan dövrъndə İslam daha ənənəvi зərзivəyə qaytarıldı. Avrənqzib dövrъndə İslam hъququ yenidən dövlət siyasətinin əsasına зevrildi. Bu mərhələdə Dini-İlahi tamamilə tarixə qovuşdu və yalnız intellektual eksperiment kimi xatırlandı. Pakistanlı dinşъnas alim Fəzlur Rəhman yazır ki, Əkbər şah qismən siyasi motivlərlə, lakin əsasən öz şəxsi dini baxışları və təcrъbələrinə dayanaraq, həmзinin iki qardaş - Əbъl-Fəzl və Feyzinin intellektual yardımı və təşviqi ilə “Dini-İlahi” adlı yeni, eklektik (seзmə) bir din tərtib etdi və təqdim etdi. Bu din ona mъtləq bir mъctəhid səlahiyyəti verirdi. Lakin yeni din hələ rъşeym halındaykən məhv oldu, həm hindular, həm də mъsəlmanlar tərəfindən eyni dərəcədə rədd edildi. Fəzlur Rəhmana görə hindu panteist təsirləri Əkbər şahı sinkretik bir din - Din-i İlahini elan etməyə və onu dövlət dini kimi qəbul etdirməyə sövq etmişdir. Lakin İştiyaq Hъseyn Qureşi, Şeyx Məhəmməd İkram və Şeyx Əbdur Rəşid kimi pakistanlı tədqiqatзılar Əkbər şahın öz peyğəmbərliyini və yeni din elan etmədiyini, İslam dinini ənənəзilikdən və mъhafizəkarlıqdan qurtarıb reform etmək istədiyini iddia etmişdirlər [Rizvi, 1975: 374-375].

Son olaraq deyə bilərik ki, “Dini-İlahi” layihəsi Əkbər şahın зoxkonfessiyalı və etnik baxımdan rəngarəng olan Böyъk Moğol imperiyasında vahid siyasi-mənəvi karkas yaratmaq cəhdinin ən yъksək ideoloji ifadəsi idi. Bu təşəbbъs sadəcə teoloji bir axtarış deyil, eyni zamanda mъxtəlif inanclı təbəələri vahid “hökmdar mərkəzli” bağlılıq ətrafında birləşdirmək istəyən strateji bir addım idi. Şahın bu yeni dini təlim sayəsində dini radikalizmə son qoyması, erkən

nikahı, qadın qətllərini, mъxtəlif din və məzhəb mənsublarının bir-birini kъfrlə ittiham etməsini qadağan etməsi öz dövrъnə görə mъtərəqqi bir addım oldu. Hərзənd ki, bu sistem Əkbər şahın vəfatından sonra saray divarları arasından зıxa bilməyərək tarix səhnəsindən silindi, lakin Hindistan tarixində dini plъralizm və dövlət-din mъnasibətləri kontekstində bənzərsiz bir təcrъbə kimi qaldı. Digər tərəfdən, İmam Rəbbani kimi nъfuzlu ruhanilərin bu yeni dinə qarşı sərt reaksiyası, İslam dъşъncəsində ortodoks və mъhafizəkar cərəyanların yenidən canlanmasına təkan verdi. Yekun olaraq, "Din-i İlahi"ni həm iddialı bir dövlət quruculuğu cəhdinin uğursuz nəticəsi, həm də bəşər tarixində dinlərarası dialoqun ən erkən və maraqlı intellektual eksperimentlərindən biri kimi qiymətləndirmək mъmkъndъr. Bu təcrъbə sъbut etdi ki, dini inteqrasiya yuxarıdan aşağıya doğru fərmanlarla deyil, cəmiyyətin daxili dinamikaları ilə uzlaşdıqda qalıcı ola bilər.

## İstifadə olunan ədəbiyyat:

1. Bazmee Ansari A.E. *Feyzi-i Hindi // TDV İslвm Ansiklopedisi*, XII cild. – İstanbul: TDV yayınları, 1995. – s.524-525.
2. Baybal S. *Babъrlъ Hъkmъdarı Ekber Şah`ın Dini Senkretizmi Ъzerine* // Tъrk-İslam Medeniyeti Akademik Araştırmalar Dergisi, № 20, 2015. – s.51-63.
3. İmam-ı Rabbani. *Mektubat*. Terc: H.H.Işık. – İstanbul: Hakikat Kitabevi, 2014. – 514 s.
4. Kalita S. Revisiting the Age of Akbar through the works of Abdul Qadir Badauni // https://www.academia.edu/45197508/Revisiting_the_Age_of_Akbar_through_the_works_of_Abdul_Qadir_Badauni
5. Konukзu E. *Ebъ'l-Fazl el-Allami // TDV İslвm Ansiklopedisi*, X cild. – İstanbul: TDV yayınları, 1994-a. – s.313-314.
6. Konukзu E. *Ekber Şah // TDV İslam Ansiklopedisi*, X cild. – İstanbul: TDV yayınları, 1994-b. – s.542-544.
7. Lefиvre C. *Din-i Ilahi*, p.81-83. https://www.academia.edu/16158994/Din_i_ilahi_in_Encyclopaedia_of_Islam_THREE_ed_by_Gudrun_Kr%C3%A4mer_Denis_Matringe_John_Nawas_Everett_Rowson_2015.
*8. Muntakhab-ut-Tawarikh by Abd-ul-Qadir Bin Maluk Shah Al-Badaoni.* Translated bu W.H.Lowe. – Calcutta: Baptist Mission Press, – 1884. – 519 p.
9. Richards J.F. *The Mughal Empire*. – Cambridge: Cambridge University Press, 2001. – 320 p.
10. Rizvi A.A. *Religious and Intellectual History of the Muslims in Akbar's Reign*. – New Delhi: Delhi Press, 1975. – 565 p.
11. Salimbekov N. *Abul Fazl Allomiyning "Oyiniy Akbariy" Asarı Tarjimalarining Ayrım O'ziga Xos Xususiyatları Haqıda* / Translation Forum – 2023. – s.209-214. //

https://oriens.uz/media/conferencearticles/33._Nodirbek_SALIMBEKOV__209-214.pdf
12.Sъveydi E.A. *Hak Sözъn Vesikaları*. – İstanbul: Hakikat Kitabevi, 2014. – 400 s.
13. *The Ain-i Akbari by Abul Fazl Allami*. Translated by H. Blochmann. – Calcutta: The Asiatic Society of Bengal, 1927. – 751 p.
14. *The Akbarnama of Abu-l-Fazl*. Vol. I. Translated by H. Beveridge. – Calcutta: The Asiatic Society, 2000. – 727 p.
15. *The Akbarnama of Abu-l-Fazl*. Vol. II. Translated by H. Beveridge. – Calcutta: The Asiatic Society, 2000. – 600 p.
*16. The Akbarnama of Abu-l-Fazl*. Vol. III. Translated by H. Beveridge. – Calcutta: The Asiatic Society, 2000. – 1345 p.
17. *The Muntakhab al-Tawarikh of Abd al-Qadir bin-i Maluk Shah al-Badaoni.* – Calcutta: College Press, – 1865. – 409 p.
18. Воробъева С.Н. *Абу-л Фазл и "Акбар-наме": Книга и Эпоха*. // https://www.vostlit.info/Texts/rus15/Allami/Tom_I/vved1.phtml?id=1427